*Professor Müseyib İbrahim oğlu İlyasov - 70*



# ZİYALI NƏSLİN LAYİQLİ NÜMAYƏNDƏSİ

Müasirimiz, dövrümüzün tanınmış ziyalısı, pedaqoq-alim, pedaqoji elita tərəfindən böyük hörmətlə qarşılanan, tələbələr tərəfindən sevilən müəllim, pedaqogika üzrə elmlər doktoru, professor İlyasov Müseyib İbrahim oğlu 1951-ci il fevral ayının 11-də Azərbaycanın dilbər güşələrindən olan Laçın rayonunun Oğuldərə kəndində müəllim ailəsində anadan olmuşdur. Atası İbrahim İlyasov ömrünün 50 ildən çoxunu (1925-1970-ci illərdə) gənc nəslin təlim-tərbiyəsinə həsr etmiş və əsl xalq müəllimi kimi xalqın hörmət və məhəbbətini qazanmışdır. Oğuldərə kəndinin böyük bir ziyalı dəstəsinin yetişməsində onun mühüm xidmətləri olmuşdur.

Babası Müseyib İlyasov məşhur Qori müəllimlər seminariyasının məzunlarından olub, XX əsrin əvvəllərində respublikamızda insanların maariflənməsində, təhsil almasında və təhsilin inkişafında böyük əməyi olmuşdur.

Sonralar babasının və atasının şərəfli peşə yolunu davam etdirəcək M. İlyasov 1957-ci ildə Oğuldərə kənd ibtidai məktəbinin (Oğuldərə məktəbi 1960-cı ildə 8 illik məktəbə, 1972–ci ildə isə orta məktəbə çevrilmişdir) birinci sinfinə getmiş, 1965-ci ildə 8-ci sinfi “əla” qiymətlərlə bitirərək Laçın şəhər orta məktəbinin 9-cu sinfinə qəbul edilmiş və 1967-ci ildə orta məktəbi bitirmişdir.

Müseyib ailə ənənələrinə sadiq qalaraq elə həmin il sənədlərini H. Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutuna (indiki Gədcə Dövlət Universitetinə) verərək ibtidai təhsil pedaqogikası və metodikası fakültəsinə qəbul olunmuşdur.

Tələbəlik illərində özünün çalışqanlığı, yaxşı oxuması, fəallığı və ictimai işlərdə yaxından iştirakı ilə müəllim və tələbələrin hörmət və rəğbətini qazanmışdır.

M. İlyasov təyinatla Laçın rayonuna göndərilmiş və 1971-ci ilin avqustunda ilk təhsil aldığı Oğuldərə kənd 8 illik məktəbinə müəllim təyin olunmuşdur. Hələ təcrübəsiz olmasına baxmayaraq elə sentyabr ayından məktəbə təlim-tərbiyə işləri üzrə direktor müavini təyin edilmişdir. O, ilk günlərdən özünü savadlı, bacarıqlı, peşəsini sevən gənc müəllim kimi göstərmiş, şagirdlərin, valideynlərin və özünün müəllimləri olan pedaqoji kollektivin hörmət və rəğbətini qazanmışdır.

M.İ. İlyasov 1972-ci ilin may ayında həqiqi hərbi xidmətə çağırılmış, zabit hazırlayan kursa göndərilmiş və hərbi xidməti ehtiyat zabit (leytenant) kimi başa vurmuşdur. 1973-cü ilin sentyabr ayında yenidən Laçın rayonunun Oğuldərə kənd orta məktəbində müəllim kimi fəaliyyətini davam etdirmişdir.

Müseyib hələ orta məktəbdə müəllim işlədiyi dövrdə təlim-tərbiyənin aktual problemləri ilə maraqlanmış, bunlarla bağlı rayonda çıxan “Laçın” qəzetində müxtəlif məqalələrlə çıxış etmişdir.

Müseyib müəllim 1976-cı ilin sentyabr ayında yenidən işlədiyi Oğuldərə kənd orta məktəbinə təlim-tərbiyə işləri üzrə direktor müavini təyin edilmiş, özünün bacarığı, işgüzarlığı və təşkilatçılığı ilə məktəbdə təlim-tərbiyə

işlərinin yüksək səviyyədə qurulmasına çalışmışdır. M.İ. İlyasovun fəaliyyəti rayon Maarif Şöbəsinin rəhbərliyinin diqqətini cəlb edtmiş, onun qabaqcıl iş təcrübəsinin rayonda yayılması məsləhət bilinmişdir.

Pedaqogika elminə olan marağı Müseyib müəllimi 1977-ci ilin payızında V.İ .Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun aspiranturasına gətirmişdir. Azərbaycanın görkəmli alimi, professor Hüseyn Əhmədovun elmi rəhbərliyi ilə "Kənd məktəblərarası tədris istehsalat kombinatlarında şagirdlərin peşəyönümünün pedaqoji əsasları" mövzusunda namizədlik dissertasiyası üzərində işləməyə başlamışdır.

M.İ. İlyasov 1980-ci ilin sonunda aspiranturanı müvəffəqiyyətlə bitirmiş və respublika Ali və Orta İxtisas Təhsili Nazirliyinin təyinatı ilə aspirantı olduğu ümumi pedaqogika kafedrasına müəllim təyin edilmişdir. 1987-ci ildə müvəffəqiyyətlə namizədlik dissertasiyası müdafiə etmişdir.

Pedaqoq alimlərdən elmi rəhbəri, professor H.M.Əhmədov, rəsmi opponentlər – SSRİ Pedaqoji Elmlər Akademiyasının müxbir üzvü, professor V.A. Polyakov, pedaqoji elmlər namizədi, dosent S. Orucov, Düşənbə Pedaqoji İnstitutunun pedaqogika kafedrasının müdiri, professor İ.O. Obidov, A.S. Puşkin adına Tbilisi Pedaqoji İnstitutunun pedaqogika kafedrasının müdiri, professor V. Qaqua, həmin kafedranın dosenti, pedaqoji elmlər namizədi Ə.X. Paşayev, Xankəndi Pedaqoji İnstitutunun pedaqogika kafedrasının dosenti S.M. Zeynalov və başqaları M.İ. İlyasovun tədqiqatı haqqında müsbət fikirlər söyləmiş və onu yüksək qiymətləndirmişlər.

Müseyib müəllim 1989-cu ildə pedaqogika kafedrasına baş müəllim, 1991-ci ildə isə dosent vəzifələrinə seçilmişdir. O, 1989-1995–ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin kimya-biologiya fakültəsində ictimai əsaslarla dekan müavini vəzifəsində işləmişdir.

M.İ. İlyasov 1982-1984–cü illərdə üç dəfə - hər biri 10 gün olmaqla Ümumittifaq Komsomol Təşkilatı Mərkəzi Komitəsinin, SSRİ Maarif Nazirliyinin və SSRİ Pedaqoji Elmlər Akademiyasının Rusiyanın Yaroslav vilayətinin Rostov-Velikiy və Zveniqorod şəhərlərində təşkil etdikləri "Gənc alimlər və mütəxəssislər məktəbi"nin iştirakçısı olmuşdur.

1984-1995–ci illərdə respublika televiziyasında ayda bir dəfə efirə çıxan "İstehsalatın əsasları. Peşə seçmə" adlı televiziya tədris proqramının daimi aparıcısı olmuş, peşəseçmənin əsaslarına dair maraqlı verilişlər aparmışdır. 1980-1990-cı illərdə respublika "Bilik" cəmiyyətinin xətti ilə respublikamızın müxtəlif bölgələrində pedaqoji mövzularda mühazirələr oxumuş, əhali arasında pedaqoji biliklərin yayılmasında fəal iştirak etmişdir.

M.İ. İlyasov 1997-1998-ci illərdə Azərbaycan Elmi Tədqiqat Pedaqoji Elmlər İnstitutunda fəaliyyət göstərən pedaqogika üzrə ixtisaslaşmış müdafiə şurasının üzvü olmuşdur. Bir neçə nəfər dissertantın rəsmi opponenti, onlarca dissertasiyalarn rəsmi rəyçisi olmuşdur. 2007-2010-cu illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetdə fəaliyyət göstərən pedaqoji elmlər üzrə ixtisaslaşmış müdafiə şurasının elmi seminarının üzvü, 2010-2012-ci illərdə Azərbaycan Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Fəlsəfə, pedaqogika, psixologiya və ilahiyyat" komissiyasının Ekspert Şurasının elmi katibi olmuş, 2013-2015- cu illərdə isə Azərbaycan Dövlət Pedaqoji Universitetdə fəaliyyət göstərən pedaqoji elmlər üzrə ixtisaslaşmış müdafiə şurasının elmi seminarının sədri olmuşdur. Hazırda Azərbaycan Prezidenti yanında Ali Attestasiya Komissiyasının filologiya və pedaqogika ixtisasları üzrə Ekspert Şurasının üzvüdür.

M.İ. İlyasov 1992-1997-ci illərdə N. Tusi adına ADPU-nun elmi əsərlər məcmuəsi olan "Pedaqoji Universitet Xəbərləri"nin "Pedaqoji-psixoloji elmlər seriyası"nın, 2007-2010-cu illərdə isə Azərbaycan "Beynəlxalq Universitet Xəbərləri"nin "Pedaqoji-psixoloji elmlər seriyası"nın məsul katibi olmuşdur. 2016-cı ildən ADPU-nun elmi əsərləri olan "Pedaqoji Universitetin Xəbərləri" elmi jurnalının "Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası"nın redaktor müavinidir. Həmçinin bir sıra nüfuzlu pedaqoji nəşrlərin redaksiya heyətinin üzvüdür.

Müseyib İlyasov Səmərqənd (1988), Tbilisi (1997), Bakı (2007-2021), Naxçıvan (2015, 2016) və Moskva (2011), Ankara (2020) şəhərlərində bir sıra beynəlxalq, həmçinin bir çox respublika (Bakı: 1978–1921–ci illər) elmi-praktik konfranslarının iştirakçısı olmuşdur.

O, 2011-ci ilin fevralında Azərbaycan Dövlət Pedaqoji Universitetində pedaqogika

üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün "Şagirdlərin peşə seç-məyə hazırlanmasının pedaqoji əsasları" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir..

M.İ. İlyasovun tədqiqatları pedaqogika elminin bir çox sahələrini əhatə edir. Ən cox və sistemli tədqiq etdiyi sahə isə şagirdlərin peşə seçməyə hazırlanması problemidir. O, bir çox elmi əsərlərin – "Şagirdlərin peşə seçməyə hazırlanmasının pedaqoji əsasları" (Bakı: Elm, 2005), "Şagirdlərin peşə seçməyə hazırlanması" (Bakı: Elm, 2009), "Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri" (Bakı: Elm və təhsil, 2018) monoqrafiyalarının, "Məktəbdə peşəyönümü işinin sistemi" (Baki: ADPU, 1990), "Yuxarı sinif şagirdlərinin vətəndaşlıq tərbiyəsi" (Bakı: Təhsil, 2003) və "Peşəyönümün əsasları" (Bakı: Mütərcim, 2011), "Müəllimin pedaqoji ustalığı" (Bakı: Elm və təhsil, 2013) adlı dərs vəsaitlərinin, 200-dən çox elmi-pedaqoji və publisistlik məqalələrin, 35 tədris proqramının və 10 metodik göstərişin müəllifi, 10 kitabın, onlarla tədris proqramının redaktoru və 6 kitabın tərtibçisidir. M. İlyasovun məqalələri Bakıda, Moskvada, Səmərqənddə, Tbilisidə, Kiyevdə, Kirovoqradda, Samarada, Tolyattidə, Ankarada bir sıra nüfuzlu jurnallarda çap olunmuşdur.

M.İ. İlyasov 2017-ci ildə professor elmi adı almışdır.

O, tələbələri tərəfindən sevilən yaxşı müəllim, pedaqoqdur. Fəal təlim və kuriklum üzrə təlimçi kimi respublika Təhsil Nazirliyi və UNİSEF-in birgə təşkil etdiyi treninqlərdə orta və ali məktəb müəllimləri üçün fəal təlim və kuriklum üzrə təlimlər aparmışdır. M.İ. İlyasov DİM-nin ekspertidir.

M.I.İlyasov 2012-ci ildə respublika Təhsil Nazirliyinin "Azərbaycan Respublikası Qabaqcıl təhsil İşçisi" döş nişanı ilə təltif olunmuşdur. 2013-cü ildən ADPU-nun Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının müdiri vəzifəsində çalışır. Professor M.İlyasovun rəhbərliyi dövründə kafedranın elmi-pedaqoji kadrlarının elmi nailiyyətləri artmış, müəllimlərin monoqrafiya, dərs və metodik vəsaitləri və xarici sanballı jurnallarda bir çox məqalələri nəşr olunmuşdur. ADPU-da keçirilən reytinq göstəricilərində hər il kafedra əməkdaşları yüksək nəticələr əldə edərək mükafata layiq görülürlər.

Müseyib müəllim həm də çox məsuliyyətli müəllimdir. O, fakültə ixtisaslarında təhsil alan tələbələrə və magistranlara dərs deyir, mühazirələr oxuyur. Professor M. İlyasovun bu gün müasir təhsilin bütün tələblərinə cavab verən dərsləri tələblərimiz tərəfindən böyük həvəs və maraqla dinlənilir.

Fakültənin və universitetin ictimai həyatında yaxından iştirak edən professor M. İlyasovun rəhbərlik etdiyi kafedra həm də fakültədə bir sıra sanballı və maraqlı tədbirlərin keçirilməsində, fakültə üzrə elmi seminarların təşkilində yaxından iştirak edir.

Sözün əsil mənasında böyük ziyalı olan Müseyib İlyasov fakültə və unuversitet kollektivinin dərin hörmətini qazanmışdır.

Müseyib müəllim qayğıkeş ata, sevimli baba və mehriban ömür-gün yoldaşıdır. O ailəlidir, üç övladı vardır. Hər üçü ali təhsillidirlər.

Hörmətli professor, pedaqogika üzrə elmlər doktoru Müseyib İbrahim oğlu İlyasovu 70 illik yubileyi münasibətilə təbrik edir, ona can sağlığı, uğurlar diləyirik.

**Şəhla Əliyeva,**
*pedaqogika üzrə elmlər doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

***P.S.: Azərbaycan Respublikasının Təhsil İnstitutunun kollektivi və institutun "Elmi əsərlər"inin yaradıcı kollektivi də bütün bu təbriklərə qoşulur, prof. Nazim Kazımovu 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif olunması, professorlar Fərrux Rüstəmovu, Müdafiə Mahmudovu və Müseyib İlyasovu isə yubileyləri münasibəti ilə təbrik edir***